

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 152 (23.063)

14 avqust 2018-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 13-də paytaxtın Qaradağ rayonunun Lökbatan qəsəbəsində inşa olunan Abşeron Logistika Mərkəzinin açılışında iştirak edib.

Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsib.

Prezident İlham Əliyev Abşeron Logistika Mərkəzinin fəaliyyəti ilə tanış olub.

Görülən işlər barədə dövlətimizin başçısına məlumat verilib. Bildirilib ki, mərkəzin inşasına 2017-ci ilin aprelində başlanılıb. Tarixi İpək yolunun üzərində yerləşən Abşeron Logistika Mərkəzinin sutkalıq yükaşırma gücü 30 min ton təşkil edir ki, bu da ildə təqribən 11 milyon ton yükə bərabərdir. Bu mərkəz vasitəsilə Azərbaycanın kənd təsərrüfatı məhsullarının xarici ölkələrə ixracı planlaşdırılır. Abşeron Logistika Mərkəzi bütün xidmətləri təklif etməklə vaxta qənaəti və xərclərin azalmasını təmin edir.

Mərkəz vahid gömrük məntəqəsi kimi qəbul olunub. İdxal, ixrac və tranzit gömrük əməliyyatları ərazidə yerləşən gömrük orqanları tərəfindən həyata keçirilir.

Mərkəzin fəaliyyəti ilə tanış olan dövlətimizin başçısı kollektivə uğurlar arzulayıb.

## Payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilib



***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyində 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirə keçirilib. Müşavirəni maliyyə naziri Səbuhi Məmmədov açıb.***

Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini Elçin Əliyev çıxış edərək bildirib ki, 2018-ci il avqustun 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində muxtar respublikada 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin də qarşısına bir sıra vəzifələr qoyulub. Belə ki, istilik sistemi olmayan müəssisələrə qış mövsümündə tələb olunan mal-materialların alınması üçün lazımi maliyyə vəsaitinin ayrılması, həmçinin dövlət müəssisələrində enerjidaşıyıcılarından istifadə zamanı borc qalığının yaranmamasını diqqətdə saxlamaq tapşırılıb.

Qeyd olunub ki, müşavirədə verilmiş tapşırıqların icrasının təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Təhsil, Səhiyyə, Mədəniyyət nazirliklərinin Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifləri nəzərə alınaraq "Naxçıvan Muxtar Respublikasının istilik sistemi olmayan müəssisələrində 2018-2019-cu illərin payız-qış mövsümü üçün tələb olunan yanacağın, mal-materialların bölgüsü" təsdiq edilib. Maliyyə Nazirliyi tərəfindən dövlət büdcəsindən maliyyələşən nazirlik, komitə, idarə və təşkilatların 2018-ci ildə saxlanılması xərcləri smetasında kommunal xidmətlərin ödənilməsi və qış mövsümündə tələb olunan mal-materialın alınması üçün vəsait nəzərdə tutulub.

Vurğulanıb ki, payız-qış mövsümünə hazırlıqla bağlı müşavirədə verilmiş tapşırıqların icrası Maliyyə Nazirliyi tərəfindən diqqət mərkəzində saxlanılmaqla debitor-kreditor borcların yaranmaması üçün kommunal xidmətlərin haqqının ödənilməsi və mal-materialın alınması ilə bağlı maliyyələşmələr vaxtında həyata keçiriləcəkdir. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş bölgüyə əsasən alınacaq mal-materialların qiymətlərinin bazar qiymətlərinə uyğunluğu nazirliyin Xəzinə şöbəsinin dövlət satınalmalarına nəzarət sektoru tərəfindən ciddi nəzarətdə saxlanılacaqdır.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *

"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən yığıncağı cəmiyyətin direktoru Mahir Əliyev açaraq məruzə edib. Bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində avqustun 4-də 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti qarşısında da bir sıra tapşırıqlar qoyulub. Həmin tapşırıqların icrası ilə əlaqədar cəmiyyətin idarə və strukturlarında payız-qış mövsümünə hazırlığa dair müvafiq əmrlə qərargah yaradılıb, ötən mövsümdəki işlər təhlil edilərək, aşkar olunan nöqsanlar nəzərə alınmaqla bir sıra tədbirlər həyata keçirilib.



Qeyd olunub ki, xidməti ərazidə qatarların təhlükəsiz hərəkətinin təmin olunması məqsədilə yolların vəziyyəti yoxlanılıb, kəskin ehtiyac duyulan sahələrdə 5 min 683 rezin altlıq, 3092 mis relsbirləşdiricisi dəyişdirilib. Yolun təmiri məqsədilə 2 ədəd 12,5 metr uzunluğunda R-50 tipli yararsız rels yarımyararlı relslərlə əvəzləşdirilib. Elektrovozların normal və fasiləsiz işini təmin etmək üçün Bakı şəhərindən 2 dartı motoru alınıb dəyişdirilib. Ötən il alınmış 8 cüt təkərdən 5-i dəyişdirilib, 3-ü isə ehtiyatda saxlanılır. Mövsümə hazırlıqla əlaqədar 79 müxtəliftipli vaqonda cari və depo təmiri aparılıb, 23 ton ox, 16 ton reduktor, 31 ton dizel, 140 kiloqram isə sürtkü yağları ehtiyatı yaradılıb. İstilik sistemləri ilə təchiz edilən sərnişin vaqonlarının və aralıq stansiyalarda növbətçi otaqların qış mövsümündə qızdırılması üçün 38,5 ton daş kömür ehtiyatı yaradılıb, əlavə olaraq mövsüm ərəfəsində 40 ton kömür alınıb gətirilməsi nəzərdə tutulub.

Bildirilib ki, payız-qış mövsümündə 110/35/10 kilovoltluq Naxçıvan dartı yarımstansiyasının normal işinin təmin olunması məqsədilə istismar müddətləri ötmüş 18 akkumulyator batareyası yeniləri ilə əvəz olunub.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətində 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən kollegiya iclasını xidmətin rəisi Namiq Paşayev açaraq məruzə ilə çıxış edib.***



Bildirilib ki, 2018-ci il avqustun 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə Dövlət Energetika Xidmətinə müvafiq tədbirlər görülməsi məqsədilə bir sıra tapşırıqlar verilib. Bu tapşırıqların icrasını həyata keçirmək üçün xidmətin bütün struktur bölmələri lazımi göstərişlərlə təlimatlandırılıb.

Diqqətə çatdırılıb ki, 2018-ci ilin yeddi ayında elektrik stansiyalarında 248 milyon 423 min 589 kilovat-saat elektrik enerjisi istehsal edilib sistemə ötürülüb. Bu enerjinin 110 milyon 967 min 900 kilovat-saatı və ya 44,7 faizi su, 20 milyon 946 min kilovat-saatı və ya 8,4 faizi günəş, 116 milyon 509 min 689 kilovat-saatı və ya 46,9 faizi isə istilik elektrik stansiyalarında istehsal edilib. Alternativ və bərpaolunan enerji mənbələrində 131 milyon 913 min 900 kilovat-saat elektrik enerjisi istehsal edilib sistemə ötürülüb ki, bu, stansiyalar üzrə sistemə ötürülən ümumi enerjinin 53,1 faizini təşkil edir.

Vurğulanıb ki, 2018-ci ilin yeddi ayı ərzində Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti tərəfindən elektrik stansiyalarında, yüksək və alçaqgərginlikli elektrik verilişi xətlərində, müxtəlifgərginlikli transformator yarımstansiyalarında qrafikə uyğun əsaslı və cari təmir işləri aparılıb. Tələbatçıların elektrik enerjisi ilə təchizatının yaxşılaşdırılması, yaşayış sahələrinin, məktəblərin, sosial obyektlərin, hərbi hissələrin, nasos stansiyaları və artezian quyularının elektrik təchizatı üçün yeni transformator yarımstansiyalarının qoyulması, müxtəlifgərginlikli elektrik verilişi xətlərinin çəkilməsi, Naxçıvan şəhərində və rayon mərkəzlərində mövcud hava elektrik verilişi xətlərinin kabel xətləri ilə əvəz edilməsi sahəsində kompleks tədbirlərin həyata keçirilməsi davam etdirilib. Bundan əlavə, Naxçıvan Modul Elektrik Stansiyasında 5 aqreqat üçün ehtiyat hissələri alınıb, ilin sonunadək həmin aqreqatlarda təmir işlərinin başa çatdırılması nəzərdə tutulub.

Xidmət rəsi bildirib ki, xidmətin istismar sahəsinə daxil olan elektrik qurğularında istər nəzərdə tutulan əsaslı təmir işlərinin aparılması, istərsə də baş verə biləcək qəzaların vaxtında aradan qaldırılması məqsədilə xarici ölkələrin firma və şirkətləri ilə bağlanmış müqavilələr əsasında ağac dirəklər, qoruyucusu olan ayırıcılar, müxtəlif en kəsikli AER markalı kabellər və XLPE markalı yüksəkgərginlikli və alçaqgərginlikli kabellər, kabel başlıqları, müxtəlif güclü 10/0,4 kilovoltluq güc transformatorları, müxtəlif en kəsikli alüminium məftillər alınaraq muxtar respublikamıza gətirilib.

Kollegiya iclası məruzə ətrafında çıxışlarla davam edib.

* * *

Sədərək Rayon İcra Hakimiyyətində keçirilən müşavirədə məruzə ilə çıxış edən rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov bildirib ki, bu dövr ərzində rayon ərazisində nasaz hala düşmüş transformator yarımstansiyaları və hava xətləri təmir olunub. Payız-qış mövsümündə əhalini fasiləsiz mavi yanacaqla təmin etmək üçün daşıyıcı və paylayıcı xətlərdə təmir işləri aparılıb, korroziyaya uğramış borular yenisi ilə əvəz olunub, 1630 ədəd sayğaca mühafizə qutusu quraşdırılıb və bu sahədə işlər davam etdirilir.

Qeyd edilib ki, rayonda əhalinin və təsərrüfat subyektlərinin elektrik enerjisinə, təbii qaza və istiliyə olan tələbatının ödənilməsi, eləcə də digər infrastruktur sahələrinin qış mövsümündə normal fəaliyyət göstərməsi üçün hazırlıq işləri sürətləndirilməli, lazımi mal-material ehtiyatı yaradılmalıdır. Rayon Elektrik Şəbəkəsi enerji təchizatı sisteminin dayanıqlılığını, ötürücü və paylayıcı şəbəkələrdə avadanlıqların normal işləməsini təmin etməli, enerji israfçılığına yol verilməsi, elektrik enerjisindən qanunsuz istifadənin qarşısının alınması istiqamətində tədbirləri davam etdirməlidir.



Diqqətə çatdırılıb ki, rayon Qaz İstismar İdarəsi təbii qaz yanacağı ilə əhalinin təminatını yaxşılaşdırmaq üçün payız-qış mövsümünə hazırlıqla əlaqədar qaz təchizatı sisteminə texniki baxış həyata keçirməli, mövcud nasazlıqların vaxtında aşkar edilərək aradan qaldırılması, istifadə müddəti bitmiş qaz sayğaclarının dəyişdirilməsinin sürətləndirilməsi, sayğacdankənar istifadənin qarşısının alınması üçün görülən işlərin səmərəliliyinin artırılmasını, yaradılmış mal-material ehtiyatlarından düzgün istifadə edilməsini diqqət mərkəzində saxlamalıdır.

Payız-qış mövsümündə təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələrinin fasiləsiz fəaliyyəti təmin olunmalı, qazanxanaların işinə nəzarət artırılmalı, rayon Mərkəzi Xəstəxanası tərəfindən kəndlərdə əhaliyə keyfiyyətli xidmət göstərilməsi üçün səhiyyə müəssisələrinin dərman preparatları ilə təminatı daha da gücləndirilməlidir.

İcra başçısı qeyd edib ki, rayon Baytarlıq İdarəsi heyvandarlıq, quşçuluq və arıçılıqla məşğul olan sahibkarlıq subyektlərinin qışlamaya hazırlığı ilə əlaqədar maarifləndirmə tədbirlərini həyata keçirməli, xəstəliklərə qarşı tələb olunan dərman vasitələri ehtiyatının yaradılmasını diqqət mərkəzində saxlamalıdır.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

# Torpağa düşmədi havayı bir dən

## Muxtar respublikanın taxılçıları cari ildə 97 min 689 ton məhsul tədarük ediblər

*Ötən ilin payızından başlayaraq taxıl zəmilərində torpaq mülkiyyətçilərimizin çəkdiyi zəhmət öz bəhrələrini verdi, başa çatan taxıl tədarükünün nəticələri hamımızı, həm istehsalçıları, həm də istehlakçıları sevindirdi.*

Məlumat üçün bildirək ki, cari ilin məhsulu üçün muxtar respublikamızda 32 min 483 hektar sahədə taxıl əkilmişdi. Əkin sahələrinin 22 min 632 hektarı buğda, 9 min 851 hektarı arpa olub. Zəmilərdən 97 min 689 ton məhsul tədarük edilib, hektarın orta məhsuldarlığı 30,1 sentnerə çatdırılıb. Təbii ki, bu nəticəyə nail olunmasında bir neçə amil başlıca rol oynayıb. Bu sırada ilk olaraq dövlət qayğısını qeyd etməliyik. Məhz bu qayğının ifadəsidir ki, cari ildə də meliorasiya-irriqasiya tədbirləri davam etdirilib, muxtar respublikaya bu ilin yanvar-iyul aylarında "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 245 ədəd yeni kənd təsərrüfatı texnikası gətirilib. Güzəştli kreditlərin verilməsi diqqət mərkəzində saxlanılıb, 5 toxumçuluq təsərrüfatı və taxılçılar tərəfindən yüksək reproduksiyalı toxumların əkilməsinə ciddi önəm verilib. 27 min ton taxılı uzun müddətə saxlamağa imkan verən taxıl anbarlarının, un dəyirmanlarının, çörəkbişirmə sexlərinin fəaliyyəti genişləndirilib. Bu tədbirlər Naxçıvan şəhərindən tutmuş muxtar respublikanın ən ucqar bölgələrini də əhatə edib. Taxıl tədarükündə 80-i sahibkarlara, 15-i "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə məxsus olmaqla, 95 kombayndan istifadə edilib.

Uzun illər taxılçılıqda yaxşı təcrübə qazanmış torpaq mülkiyyətçiləri sahələrə vaxtlı-vaxtında aqrotexniki qulluq göstərib, taxıl zəmilərində yüksək məhsuldarlığa nail olmaq üçün sahələrin suvarılmasını, ziyanvericilərə qarşı müvafiq işlərin görülməsini diqqətdə saxlayıb, çəkilən zəhmətin hədər getməməsi üçün tələb olunan bütün təsərrüfat işlərini yerinə yetiriblər.



Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatından da göründüyü kimi, sərhəd bölgəsi olan Sədərək rayonu bu il də liderliyi saxlaya bilib. Bölgənin taxılçıları 2466 hektar taxıl zəmisindən 7959 ton məhsul toplayıblar. Bu isə orta məhsuldarlığın 32,2 sentner olması deməkdir. Ayrı-ayrı taxılçılarda bu rəqəm daha yüksəkdir. Rayonun Sədərək kənd sakinləri Elşən Əliyev 20, Qafar Zeynalov isə 30 hektar sahədə taxıl yetişdiriblər. Zəmilərə vaxtında və aqrotexniki qaydada qulluq göstəriblər. Çəkdikləri zəhmət hədər getməyib. Hər ikisi hektarın orta məhsuldarlığını 35 sentnerə çatdırıb. Elşən Əliyev deyir ki, neçə illərdir, taxılçılıqla məşğuldur. Çoxları elə düşünür ki, toxumu torpağa atdın, zəmini suvardın – bununla iş bitdi. Əslində, belə deyil. Taxıl da qayğı istəyir. Bu qayğının qarşılığını verə bilsən, torpaq sənin zəhmətinin əvəzini birə-beş ödəyəcək. Mən bunu neçə illərdir ki, öz fəaliyyətimdə görmüşəm. Tədarük etdiyim taxıldan yaxın günlərdə başlayacağım əkin üçün toxumluq götürmüşəm. Bir hissəsini isə üyüdərək ailəm üçün ayırmış, qalanını da satmışam. Hazırda əkəcəyim sahələrdə şum qaldırılması ilə məşğulam. Çalışıram ki, builki əkin kampaniyasını da vaxtında başa çatdıram.

Ən böyük bölgəmiz sayılan Şərur rayonu taxıl tədarükündə 31,9 sentner məhsuldarlığa nail olub. Bu rayonda 4348 hektar sahədən 13 min 861 ton məhsul tədarük edilib. "Şərur Aqrotexservis" Səhmdar Cəmiyyətinin sədri Aqil Məmmədov deyir ki, cəmiyyətə məxsus olan texnikalarla sahələrin şumlanmasında, taxıl əkinində və tədarükündə taxılçılara yaxından köməklik göstəriblər. Hazırda cəmiyyətin dəyirmanında taxıl üyüdülməsi həyata keçirilir.

Aqil Məmmədovun özü də taxılçılıqla məşğul olur. Cari ildə o, 25 hektar taxıl əkini sahəsindən 100 ton məhsul götürüb. Bu rəqəm məhsuldarlığın 40 sentner olması deməkdir. Sahibkar bunu son hədd hesab etmir. Bundan da yüksək məhsuldarlığa nail olanlardan danışır:



– Zeyvə kənd sakini Rasim Məmmədov 1 hektar taxıl əkini sahəsindən 7,5 ton (75 sentner), dərəkəndli Arif Musayev 1,6 hektar sahədən 11 ton (65 sentner) taxıl tədarük edib. Məhsulun keyfiyyətinə də söz ola bilməz. Rayonda belələri onlarladır. Bölgənin taxılçıları hərtərəfli dövlət qayğısından, rayonun bərəkətli torpaqlarından səmərəli istifadə edir, hər il yüksək nəticələrə nail olurlar. Qazandıqları uğurlar onların taxılçılığa marağını daha da artırır. Artıq Şərurda gələn ilin məhsulu üçün şum qaldırılmasına başlamışıq. İnanırıq ki, şumqaldırma kampaniyasını və taxıl əkinini vaxtında başa çatdıracağıq.

Bir vaxtlar dağlıq ərazilərdə taxıl əkilib-becərilməsinə bir o qədər də diqqət yetirilmirdi. Bunu belə zonalarda taxılın məhsuldarlığının aşağı olması ilə izah edirdilər. Lakin göstərilən hərtərəfli dövlət qayğısı müqabilində daxili bazarın yerli taxıl məhsulları ilə təminatına öz töhfələrini vermək istəyən şahbuzlular sübut etdilər ki, belə ərazilərdə də yaxşı məhsuldarlığa nail olmaq mümkündür. Cari ildə onlar 1615 hektar sahədən 4432 ton məhsul tədarük ediblər. Orta məhsuldarlıq 27,4 sentner olub.

Beləcə daha bir taxıl biçini kampaniyası uğurla başa çatdı. Necə deyərlər, torpağa havayı bir dən belə, düşmədi. Ona görə də istehsalçı da, istehlakçı da sevinir ki, yenə də süfrələrimizdə yerli taxılın unundan hazırlanmış çörək bol olacaq. Bu strateji və müqəddəs ərzaq məhsulunu əldə etmək üçün başqa ünvanlara üz tutmayacağıq.

**Muxtar MƏMMƏDOV**

*Bu gün mətbəximizdə ən çox istifadə etdiyimiz ərzaq məhsullarından biri kartofdur. Hazırda strateji məhsul sayılan kartof çörəkdən sonra ən çox ehtiyac duyulan qida növüdür. Kartofçuluğun inkişafına muxtar respublikamızın torpaq mülkiyyətçiləri tərəfindən böyük maraq vardır.*

# Kartofçuluq mühüm kənd təsərrüfatı sahəsidir

Əvvəlcə onu qeyd edək ki, ötən əsrin sonlarında məlum ictimai-siyasi vəziyyət digər sahələr kimi, muxtar respublikanın kənd təsərrüfatı sahəsinə də böyük təsir göstərmişdi. Mövcud vəziyyət muxtar respublikaya xaricdən bir çox kənd təsərrüfatı məhsullarının idxalını zəruri etmişdi ki, kartof da belə ərzaq məhsulları içərisində öncül yerlərdən birini tuturdu. Ancaq kənd təsərrüfatı sahəsində aparılan köklü islahatlar, ənənəvi yerli məhsulların becərilməsinə dövlətimiz tərəfindən hərtərəfli dəstəyin göstərilməsi qısa müddətdə muxtar respublikada kartofçuluğun da inkişafına mühüm təsir göstərib. Xüsusilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə qəbul edilmiş "Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı (2005-2010-cu illər)" bu sahədə yeni mərhələnin başlanmasına təkan verib. Ötən dövrdə proqramın uğurlu icrası bir çox torpaq mülkiyyətçilərinin kartofçuluğa olan marağını artırıb. Belə torpaq mülkiyyətçilərindən biri də Ordubad rayonunun Üstüpü kəndində yaşayan 62 yaşlı Tağı Nəcəfovdur. Sovetlər Birliyi dövründə uzun illər aqronom kimi çalışan Tağı Nəcəfov muxtar respublikada aparılan torpaq islahatlarından sonra sahibkarlıq fəaliyyətinə başlayıb.

Müsahibim deyir ki, Üstüpü kəndinin məhsuldar torpaqlara, həmçinin əlverişli iqlim şəraitinə malik olmasının nəticəsidir ki, burada yetişdirilən kənd təsərrüfatı məhsulları öz dad-tamı ilə seçilir. Elə bu səbəbdən də bu torpaqlarda bitən məhsullara alıcılar tərəfindən yüksək tələbat vardır. Kənd zəhmətkeşlərinin bazara çıxardığı kartof, kələm, lobya, min bir dərdin dərmanı olan bal dərhal özünə alıcı tapır. Barlı-bəhərli Üstüpü torpağının hər qarışına bələd olan Tağı Nəcəfov ailəsi ilə birlikdə hər il, təqribən, 5 hektar sahədə məhsul yetişdirir. Müsahibim deyir ki, Üstüpü kəndi



ərazisində yerləşən, muxtar respublikanın yüksək zirvələrindən olan Yağlı dərənin yaxınlığındakı Nəbili yurdu yaylağında kartof əkini üçün iki hektardan artıq torpaq sahəmiz vardır. Elə il olur ki, həmin sahədən 90 tona yaxın məhsul götürürük. Yığılan məhsulun bir hissəsini qış üçün tədarük edir, kiçik olanları toxum üçün ayırır, qalanını isə kənd təsərrüfatı yarmarkalarında satışa çıxarırıq. Onun dediyinə görə, hətta becərdiyi sahələrdən çəkisi 970 qrama yaxın kartof da əldə edib.

Tağı Nəcəfov bildirir ki, bizim yerlər ta qədimdən kartofçuluğun inkişaf etdirildiyi yer kimi tanınıb, elə keçmişdən bu sahəyə xüsusi diqqət yetirilib. Onun dediklərindən:

– Mənim atam da təsərrüfatçı olub. Torpağa bağlılıq hissi mənə atamdan qalan mirasdır. Fikrimcə, insanı yaşadan su, hava qədər dəyərli nemətdir torpaq. Torpağın məhsuldar olmasını istəyirsənsə, gərək ona baş əyəsən, qulluq edəsən. Məhsuldar kartof istehsalı üçün, təbii ki, təkcə zəhmət bəs etmir, gərək bu bitkinin, necə deyərlər, dilini biləsən, aqrotexniki tədbirlərə dəqiq əməl edəsən. Bunun üçün ilk olaraq düzgün torpaq sahələri seçilməlidir. Həmçinin yüksəkkeyfiyyətli kartofun əldə edilməsi səliqəli əkinin kombinasiyalarından da asılıdır. Toxumların bərabər və doğru dərinlikdə əkini olduqca vacibdir. Əkin və yığım arasındakı müddət bu məhsulun ən həssas mərhələsidir. Optimal cücərtinin inkişafında doğru torpaq seçimi ilə yanaşı, əkin müddətindəki temperatur və nəmlik də tələblərə cavab verməlidir. Torpaqdakı nəmlik toxumun cücərməsinə gözəçarpan dərəcədə təsir edir. Əgər torpaq çox qurudursa, bitkinin cücərməsi gecikəcək, nəmliyi çoxdursa, suya doymuş torpaqda toxum oksigenin çatışmazlığından çürüyəcəkdir.

Həmsöhbətim deyir ki, ata-babalarımızdan torpağın kartof əkininə hazır olduğunu yoxlamaq üçün bir qədər torpağı ovcumuzda yumrulayıb, bir metr hündürlükdən yerə atarıq. Əgər torpaq ovcumuzda ələ yapışmadan, rahat yumrulanıb, yerə atıldıqda dağılırsa, bu zaman sahə əkin üçün yararlıdır. Çiçəklənmə dövrünə qədər az su tələb edən bu bitki, çiçəklənmədən sonra ikiqat su tələb edir. Belə ki, çiçəklənmədən sonra bitki su ilə tam təmin olunmalıdır.

Bəs kartofu uzun müddət saxlamaq üçün nə etməliyik? – sualımızı müsahibimiz belə cavablandırır: "Kartofun yalnız gecyetişən növləri uzunmüddətli saxlama üçün yararlıdır. Sarı qabıqlı kartof daha çox qalıcıdır. Onu deşikləri olan taxta, yaxud karton qutularda, 3-5 dərəcə temperatur olan quru və sərin yerlərdə saxlamaq əlverişlidir. Temperatur sıfır dərəcə olduqda bitkidəki nişasta sürətlə şəkərə dönür və kartof şirinləşir. Kartof seçərkən mütləq diqqət etmək lazımdır ki, üzəri hamar, möhkəm və bir rəngdə olsun. Əgər bir tərəfində yaşıl rəng varsa, bu, o deməkdir ki, kartof işıqda saxlanılıb. Bu yaşıl rəngdə zəhərli maddə hesab olunan solanini isə mütləq kəsib təmizləmək lazımdır. Əks halda, bu bitkidən ağır zəhərlənmə baş verə bilər.

Kartofun faydalarına gəldikdə isə xalq təbabətində onun şirəsindən vərəm, tənəffüs orqanlarının, onikibarmaq bağırsağın xəstəliklərinin, mədə yarasının müalicəsində istifadə edilir. Tərkibində çoxlu K vitamini olduğuna görə mayeqovucu xüsusiyyətə malikdir. Bundan başqa, kartofun bir çox müalicəvi xüsusiyyətləri mövcuddur. Məsələn, kartofu çiy halda yastı formada doğrayıb yanıq, ekzema (dəri xəstəliyi) olan yerlərə qoyub onları sağaltmaq mümkündür. Kartof buxarı ilə astmatik xəstəlikləri də müalicə edirlər. Tərkibində olan B vitamini əsəbləri sakitləşdirir, yorğunluğu aradan qaldırır. Suda bişmiş kartofu əl və ayaqlara maska kimi çəkdikdə dərini yumşaldır və çatları sağaldır. Maqneziumla zəngin olduğu üçün saç və dərinin gözəlliyini qoruyur.

Bəli, "ikinci çörək" adlanan kartofu məişətdə heç bir məhsul əvəz edə bilmir. Bu ərzaq növü təkcə qida məhsulu kimi deyil, həm də nişasta, qlükoza, spirt istehsalında, habelə heyvandarlıqda çox gərəklidir. Buna görə də ərzaq təhlükəsizliyi ilə əlaqədar dünya miqyasında kartofçuluğun inkişafına xüsusi diqqət yetirilir. Təsadüfi deyil ki, 2008-ci il BMT tərəfindən "Kartof ili" elan olunmuşdu.

Ölkəmizdə, eləcə də muxtar respublikamızda da bu mühüm sahə diqqət mərkəzində saxlanılır. Hazırda kənd təsərrüfatının bu sahəsi ilə məşğul olanlara güzəştli kreditlərin verilməsi kartofçuluğa marağı daha da artırıb. Bunun nəticəsidir ki, indi Tağı Nəcəfov kimi bu sahə ilə məşğul olan torpaq mülkiyyətçilərinin sayı ildən-ilə daha da artır. İnanırıq ki, yaradılmış şərait kartofçuluğun daha da inkişafına şərait yaradacaq, əhalinin yerli məhsullarla ilboyu təminatına öz töhfəsini verəcəkdir.

**Gülcamal TAHİROVA**

# Rabitə xidmətlərinin əhatə dairəsi genişləndirilir

*Muxtar respublikada yeni texnologiyaların tətbiqi və əhaliyə keyfiyyətli poçt, rabitə, internet və teleradio xidmətlərinin göstərilməsi 2018-ci ilin iyul ayında da uğurla davam etdirilib.*

Ordubad rayonunda Rabitə Evi və 11 min 300-dən artıq nömrə tutumu olan 35 yeni nəsil telefon stansiyası istifadəyə verilmiş, "Huawei" şirkəti ilə bağlanmış müqaviləyə əsasən 15 yeni nəsil avtomat telefon stansiyası muxtar respublikaya gətirilərək quraşdırılmasına başlanmışdır. Şərur rayonunun Axamməd, Həmzəli, Kürçülü, Yuxarı Yaycı və Diyadin kəndlərində, Şahbuz rayonunun Şada kəndində kareltipli ATS-lər yeni nəsil NGN tipli avtomat telefon stansiyalar ilə əvəz olunmuş, Kəngərli rayonunun Qarabağlar kəndində əhalinin telefon çəkilişinə olan tələbatı nəzərə alınaraq 448 nömrəlik yeni avtomat telefon stansiyası quraşdırılmışdır. Həmçinin hesabat ayında mövcud avtomat telefon stansiyaların nömrə tutumlarının artırılması nəticəsində 188 yeni telefon nömrəsi istismara verilmiş, muxtar respublika ərazisində, ümumilikdə, 9770 metr fiber-optik kabel xətti çəkilmişdir.

Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzi tərəfindən genişzolaqlı ADSL texnologiyası vasitəsilə 546 yeni abunəçi internetlə təmin olunmuş, Naxçıvan Muxtar Respublikasının "Elektron hökumət" portalında yenilənmə işləri davam etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

Turizm

## Mövcud potensial Naxçıvanın turizm imkanlarını genişləndirir

***Bu gün azad bazar iqtisadiyyatı sisteminin tələbləri çərçivəsində inkişaf edən muxtar respublikamızın beynəlxalq aləmə inteqrasiyası sahəsində mühüm addımlar atılır, dünya dövlətləri ilə iqtisadi əlaqələri genişləndirilir. Bu əlaqələrin mühüm bir istiqamətini də turizm təşkil edir. Hansı ki turizm bu gün artıq bütün dünyada ən gəlirli sahələrdən birinə çevrilib. Bu iqtisadi sektorun dünya təcrübəsi göstərir ki, inkişaf etmiş regionlarda dövlət və əhali gəlirlərinin 30 faizə qədəri turizm fəaliyyəti ilə bağlıdır.***





Son illərdə Naxçıvan Muxtar Respublikasında da bu sahənin inkişaf etdirilməsi prioritet istiqamətlərdən birinə çevrilib və həyata keçirilən tədbirlər ildən-ilə bu qədim diyara gələn turist sayının artması ilə müşahidə olunur. Xüsusilə 2016-cı il martın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində muxtar respublikada turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilən müşavirədə qarşıya qoyulmuş vəzifələrin icrasının uğurla davam etdirilməsi turizmin yeni inkişaf mərhələsinə qədəm qoymasına şərait yaradıb. Həmin müşavirədə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: ***"Sabitlik, iqtisadi inkişaf, zəngin tarixi-mədəni irs, ekoloji cəhətdən təmiz qida məhsulları və yaradılan şərait Naxçıvanda turizmin inkişafını şərtləndirən əsas amillərdir. Muxtar respublikanın turizm potensialı bura səfər edən xarici ölkə vətəndaşları tərəfindən yüksək qiymətləndirilir. Bu gün Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın əsasını kənd təsərrüfatı və sənaye təşkil edir. Lakin mövcud turizm potensialı imkan verir ki, bu sahə də inkişaf etdirilsin. Turizmin inkişafı isə aid dövlət qurumları ilə yanaşı, həm də hər bir vətəndaşın, xüsusilə gənclərin üzərinə düşən əsas vəzifələrdəndir. Muxtar respublikanın tarixi, mədəniyyəti, coğrafiyası, müasir inkişafı və turizm potensialı haqqında məlumatların yayılması və təbliği hər kəsi düşündürməli, konkret tədbirlər həyata keçirilməlidir".***

Turizmin inkişaf etdirilməsində ən başlıca amil sabitliyin qorunub saxlanılmasıdır. Çünki turistlər üçün getdikləri ölkədə təhlükəsizliyin təmin olunması ilk sırada gəlir. Baxmayaraq ki, ölkəmiz uzun illərdən bəri müharibə vəziyyətindədir, aparılan dövlət siyasətinin ən başlıca qayəsi vətəndaşların təhlükəsizliyinin və ictimai-siyasi sabitliyin davamlılığının təmin edilməsidir. Digər tərəfdən, infrastruktur imkanlarının geniş və əlçatan olması turizm üçün əsasdır. Muxtar respublikamızda şəhər və rayon mərkəzləri ilə yanaşı, kənd yaşayış məntəqələrində də həyata keçirilən tikinti-quruculuq tədbirləri, o cümlədən yolların abadlaşdırılması, nəqliyyat-rabitə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi və sair mövcud şəraitdən istifadəni asanlaşdırır ki, bu da turizmin inkişafı üçün mühüm şərtlərdəndir. Muxtar respublikamızda tarixi abidələrin əsaslı şəkildə təmir-bərpa olunaraq istifadəyə verilməsi, müxtəlif profilli mədəniyyət müəssisələrinin fəaliyyətə başlaması milli dəyərlərə göstərilən qayğının bariz nümunəsi olmaqla yanaşı, həm də mədəniyyət amilinin turizmdə nə qədər önəmli olduğunu ortaya qoyur.

Təbii ki, turizmdə hər bir bölgənin milli koloriti təbliğ olunduğu üçün həmin bölgənin özünəməxsusluğu bu sahənin inkişafında əhəmiyyətli rola malikdir. Bu baxımdan Naxçıvanın turizm potensialı qədim diyarın tarixi, uzaq keçmişə dayanan zəngin mədəniyyəti, cəlbedici landşaftı, ekoloji vəziyyəti, təbii cəhətdən saf qida məhsulları, mətbəxi, qonaqpərvərliyi, yerli sakinlərin əcnəbilərə tolerant davranışı kimi bir çox tərəfləri özündə birləşdirir.

XXI əsrin turistlərini ən çox maraqlandıran isə turizmdə yeni bölgələrin kəşf edilməsidir. Burada isə ənənəvi maraqlar ikinci plana keçir. Fərqli maraq və düşüncələrin təminatını ödəyən bölgələr dünyada o qədər də çox deyil. Naxçıvan isə beynəlxalq turizm üçün yeni bölgə olduğundan, eyni zamanda özünəməxsus, dünyada nadir rast gəlinən bir çox rasional dəyərləri əhatə etdiyindən qədim diyarda bu sahənin inkişafı üçün unikal imkanlar mövcuddur. Məsələn, bəşəriyyətin ikinci yaranışını özündə əks etdirən tarixi ərazilərin, bütün dinlərin yaranışından əvvəl təkallahlılığı təbliğ edən Əshabi-Kəhf mağarasının, heç bir ölkədə bənzəri olmayan Duzdağın, kiçik bir ərazidə yerləşən yüzlərlə mineral su yataqlarının, çoxsaylı qədim insan məskənlərinin mövcudluğu Naxçıvanın dünya turizmi üçün yeni bir qapı olduğunu göstərir. Əlbəttə, potensialın olması zəruri amillərdəndirsə, bu potensialın tanıdılması, təbliğ edilməsi daha vacib şərtlərdəndir. Elə Naxçıvanın beynəlxalq turizm bazarına inteqrasiyasını təmin edən əsas məsələlərdən biri də bu istiqamətdə davamlı tədbirlərin həyata keçirilməsidir. Bu sahədə atılan addımlardan biri kimi son illərdə muxtar respublikada təşkil olunan beynəlxalq tədbirlər məxsusi əhəmiyyət daşıyır. Həm beynəlxalq idman yarışları, həm də mədəni-humanitar tədbirlər əcnəbilərin Naxçıvanla tanışlığında mühüm rol oynayır. Sevindirici haldır ki, turizmin inkişafına kompleks yanaşmanın tətbiqi son illərdə muxtar respublikaya turist axınının sürətlənməsinə öz təsirini göstərib. Məsələn, statistikaya görə, 2014-cü ildə muxtar respublikamıza 378 min turist gəlib. 2015-ci ildə bu rəqəm 390 min, 2016-cı ildə isə 403 min nəfər olub. 2017-ci ildə muxtar diyarımıza gələn turistlərin sayı 413 min 357 nəfər təşkil edib. Yəni turistlərin Naxçıvana səfərində hər il artım dinamikası müşahidə olunub. 2018-ci ilin ötən 6 ayında isə muxtar respublikaya 195 min 886 turist gəlib. Turizm mövsümünün davam etdiyini nəzərə alsaq, ilin sonunadək Naxçıvana səyahət edəcək turistlərin sayının çox olacağını indidən proqnozlaşdırmaq mümkündür. Naxçıvan şəhərinin 2018-ci il üçün ölkəmizin Gənclər Paytaxtı, eyni zamanda İslam Mədəniyyətinin Paytaxtı statusunu daşıması cari ildə bu qədim Azərbaycan diyarına səfər edənlərin sayını daha da artıracaq.

Yeri gəlmişkən, Ümumdünya Turizm Təşkilatının "Dünya turizm barometri" nəşrinin ilin əvvəlində verdiyi proqnozlara görə, 2018-ci ildə dünyada turist axınının 4-5 faiz yüksələcəyi gözlənilir. Təbii ki, bu, son illərdə turizm sahəsində sürətlə inkişaf edən ölkəmizə, o cümlədən muxtar respublikamıza təsirsiz ötüşməyəcək. Ümumilikdə, Naxçıvan Muxtar Respublikasının Şərq-Qərb dəhlizi üzərində əlverişli tranzit imkanlarına və cəlbedici turizm potensialına malik olması yaxın gələcəkdə qədim diyarın turizm qovşağına çevrilməsində əhəmiyyətli rol oynayacaq.

**Səbuhi HƏSƏNOV**

## Humanitar tibbi aksiya keçirilib

*Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim və tibb işçiləri rayon mərkəzlərinin, qəsəbə və kəndlərin, eləcə də ucqar sərhəd və dağ yaşayış məntəqələrinin səhiyyə müəssisələrində yaradılmış imkanlar hesabına əhalinin tibbi müayinəsini və cərrahi əməliyyatları uğurla davam etdirirlər.*

Ayda bir dəfə təşkil edilən növbəti aksiya Şərur rayonundakı Aralıq kənd sahə xəstəxanasında keçirilib. Bunun üçün əvvəlcədən hazırlıq işləri görülüb, müayinə və müalicə olunacaq xəstələrin siyahısı hazırlanaraq xəstəxanaya dəvət olunublar.

Həkim briqadasının üzvləri bu səhiyyə müəssisəsində 81 nəfəri ambulator müayinələrdən keçirərək müvafiq tövsiyələr veriblər. Müayinələrin aparılmasında cərrah, oftalmoloq, terapevt və nevropatoloqlar, LOR həkimləri və laboratoriya işçiləri iştirak ediblər.

` Ambulator tibbi müayinələrlə əhatə olunanlardan Aralıq kənd sakini Mirməcid Seyidov başqa yerlərə getmədən, ərazidə yerləşən səhiyyə müəssisəsində müayinə olunmasına görə minnətdarlıq edib, bütün bunları aztəminatlı ailələrdən olan xəstələrə xüsusi qayğı kimi dəyərləndirib. Kənd sakini Lyudmila Ağayeva da belə xeyirxah aksiyaların təşkilatçı və icraçılarına minnətdarlığını bildirib.

Naxçıvan Muxtar Respublika Xəstəxanası belə aksiyaları digər rayonlarda da davam etdirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***Naxçıvan Qarnizonu qoşunlarında iyul ayı ərzində həqiqi hərbi xidmətə çağırılmış gənc əsgərlərin andiçmə mərasimləri keçirilib.***

## Gənc əsgərlər Vətənə sədaqət andı içiblər



Əlahiddə Ümumqoşun Orduda keçirilən hərbi andiçmə mərasimində gənc əsgərlər təntənəli surətdə Vətənə sədaqət andı içərək ordu sıralarına tamhüquqlu həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi daxil olublar. Tədbirdə çıxış edənlər hərbi andı qəbul edən əsgərləri təbrik edərək onlara xidmətlərində uğurlar arzulayıblar.

Çıxışların ardından Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayevin təbriki şəxsi heyətə çatdırılıb. Bildirilib ki, 2018-ci ilin may ayı ərzində Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli yüksəkliklər ələ keçirilib. Əlahiddə Ümumqoşun Ordu müdafiə zolağının ön xəttinin dövlət sərhədi boyu daha əlverişli mövqelərdə möhkəmləndirib. Hərbi andı yenicə qəbul etmiş əsgərlərimiz çalışmalıdırlar ki, torpaqlarımızın müdafiəsi məqsədilə komandirlər tərəfindən öyrədilənləri, silah və texnikanın sirlərini dərindən mənimsəsinlər.

Andiçmə mərasimi şəxsi heyətin tribunanın önündən təntənəli keçidi ilə başa çatıb. Mərasimdən sonra əsgər valideynləri və yaxınları hərbi hissələrdə yaradılan yaşayış və məişət şəraiti ilə tanış olublar.

Valideynlər övladlarının hərbi xidmət keçmələrindən qürurlandıqlarını ifadə ediblər. Çünki övladları şərəfli Azərbaycan əsgəri adını qazanıb və əmindirlər ki, onlar müasir şəraitə, hərtərəfli təminata malik hərbi hissələrdə xidmət edirlər. Naxçıvan Muxtar Respublikasının etibarlı müdafiə təminatı ilə bağlı həyata keçirilmiş tədbirlər çərçivəsində əsgərlərin heç bir çətinliklə üzləşmədən xidmət aparmaları üçün hərtərəfli şərait yaradılıb. Gənclərin təntənəli şəkildə hərbi xidmətə yola salınması, hərbi hissələrə qəbulunun və andiçmə mərasimlərinin yüksək səviyyədə, bayram əhval-ruhiyyəsində keçirilməsi əsgərlərimizə verilən yüksək qiymətin təzahürüdür.

Qeyd edək ki, hərbi xidmətə yeni başlamış gənclərin ən çətin döyüş tapşırıqlarını yerinə yetirəcək peşəkar əsgərlər kimi hazırlanması üçün planauyğun dərs və praktik məşğələlər keçirilir.

* * *

Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasında keçirilən hərbi andiçmə mərasiminə hazırlıq barədə raport verildikdən sonra hərbi hissənin döyüş bayrağı sıra meydanına gətirilib. Mərasim ümummilli liderimiz Heydər Əliyevin və Azərbaycan torpaqlarının azadlığı uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsinin yad edilməsi ilə başlayıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Sonra gənc əsgərlər hərbi andı qəbul ediblər. Tədbirdə Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, general-leytenant Fazil Ələkbərovun və Azərbaycan Respublikasının daxili işlər nazirinin müavini, Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədovun təbrikləri şəxsi heyətə çatdırılıb.

Andiçmə mərasimində çıxış edənlər əsgərlərə xidmətlərində uğurlar arzulayıblar.

Sonda xüsusi təyinatlı bölüyün nümunəvi çıxışları olub.

* * *

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında keçirilən andiçmə mərasimində əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra gənc əsgərlər Vətəni layiqincə qoruyacaqlarına, əsgəri borclarını şərəflə yerinə yetirəcəklərinə and içiblər. Mərasimdə alay komandiri, polkovnik-leytenant Azadil Hüseynov çıxış edərək bildirib ki, hərbi anda sadiq qalmaq hər bir əsgərin müqəddəs borcu olmalıdır. Çünki gənc əsgərlər andı qəbul edərkən Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini qoruyacaqlarına, bundan ötrü qanlarını və canlarını əsirgəməyəcəklərinə təntənəli surətdə and içirlər.



Tədbirdə Mülki Müdafiə Alayının zabiti, baş leytenant Nicat Seyidzadə, əsgər Elxan Mahmudov, gənc əsgər İlkin Abdullayev çıxış ediblər. Qonaqlar adından Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının Naxçıvan Şəhər Şöbəsinin sədri Zahid Cəfərov, valideyn Mütəllim Əliyev gənc əsgərləri təbrik edib, onlara Vətənin müdafiəsində uğurlar arzulayıblar.

Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə işinin təşkili şöbəsinin rəisi, polkovnik Emin Qasımov çıxışında Azərbaycanın müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün etibarlı şəkildə qorunmasında Silahlı Qüvvələrimizin rolundan, Mülki Müdafiə Alayının inkişaf tarixindən, nazirliyə və onun struktur qurumlarına göstərilən dövlət qayğısından ətraflı bəhs edib, gənc əsgərlərə xidmətlərində uğurlar arzulayıb.

Sonda alayın şəxsi heyəti hərbi marşın müşayiəti ilə tribuna önündən keçib.

**Xəbərlər şöbəsi**

## Sağlamlıq imkanları məhdud və aztəminatlı ailələrin uşaqları üçün “Yay məktəbi” təşkil olunub

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı, Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu, Təhsil, Gənclər və İdman, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Həmkarlar İttifaqları Şurasının iştirakı ilə Ağbulaq İstirahət Mərkəzində gənclərin “Yay məktəbi” təşkil olunub.*





Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın icrası bu gün də uğurla davam etdirilir. Bu məqsədlə təşkil olunan “Yay məktəbi”ndə iştirak edən şagirdlər əvvəlcə istirahət mərkəzi ilə tanış olub, onlar üçün ayrılmış otaqlarda yerləşdiriliblər. Həmin gün uşaqlar arasında dama yarışı keçirilib, qaliblər mükafatlandırılıb. Həmçinin gün ərzində oxunması zəruri olan bir neçə kitabın müzakirəsi keçirilib, sonda isə vətənpərvərlik mövzusunda film nümayiş olunub.

İkinci gün sağlamlıq imkanları məhdud uşaqlar arasında müxtəlif idman oyunları keçirilib, onların Ağbulaq kəndi ərazisinə gəzintisi təşkil edilib.

Üçüncü gün nəzərdə tutulmuş proqrama uyğun olaraq sağlamlıq imkanları məhdud uşaqların iştirakı ilə oxunması zəruri olan daha bir neçə kitabın müzakirəsi keçirilib. Həmçinin Naxçıvan Dövlət Kukla Teatrının aktyorları “Yay məktəbi” iştirakçıları üçün tamaşa göstəriblər. Günün ikinci yarısında isə sağlamlıq imkanları məhdud uşaqların təbiətə gəzintisi təşkil olunub.

“Yay məktəbi”ndə iştirak edən 9 yaşlı Aysu Əliyeva ilə söhbətimiz zamanı bildirdi ki, üç gün ərzində mərkəzdə istirahətləri gözəl təşkil olunub və təşkilatçılar onların hər bir problemi ilə yaxından maraqlanıblar. Ən çox da keçirilən oyunlar onda xoş təəssürat yaradıb.

17 yaşlı Suat Muradovu isə daha çox Ağbulaq kəndinin təmiz havası valeh edib. Müsahibimiz bildirdi ki, buranın sərin havası, gözəl təbiəti ilə yanaşı, kənd gəzintisi və idman oyunları da günlərimizin xoş keçməsinə səbəb oldu. Bizim üçün yaradılan bu cür şəraitə görə təşkilatçılara minnətdarlığımı bildirirəm.

İstirahət mərkəzində uşaqları müşayiət edən valideynlərdən Xumar Əliyevanın fikrincə, belə istirahətlər sağlamlıq imkanları məhdud uşaqların psixoloji durumuna da müsbət təsir göstərir. Onların Ağbulaq İstirahət Mərkəzində oyunlar oynaması, kitabları müzakirə etməsi həm də uşaqlar arasında dostluq münasibətlərinin yaranmasına imkanlar açır. Onların, xüsusilə intellektual oyunlarda fərqlənmələri biz valideynləri də xeyli sevindirdi.

Valideyn Heyran Məmmədova isə yaradılan şəraitə görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirərək qeyd etdi ki, bu gün Naxçıvanda sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası üçün hərtərəfli şərait yaradılıb, onların hər bir problemi yerindəcə həll olunur.

Qeyd edək ki, “Yay məktəbi”ndə valideynlərin də müşayiəti ilə 39 nəfər iştirak edib. Uşaqlar üçün 1 həkim və 4 nəzarətçi təhkim olunmuşdu.

Muxtar respublikamızda aztəminatlı ailələrin uşaqları da hər zaman dövlətin diqqət və qayğısı ilə əhatə olunur. Onların sağlamlıqları, təlim-tərbiyəsi, təhsilləri, intellektual səviyyələrinin yüksəldilməsi, milli-mənəvi dəyərlər əsasında tərbiyə olunmaları və asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır və bu sahədə ardıcıl işlər görülür. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı, Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Həmkarlar İttifaqının iştirakı ilə Ağbulaq İstirahət Mərkəzində aztəminatlı ailələrdən olan uşaqların da “Yay məktəbi” təşkil olunub. 45 nəfərin iştirak etdiyi məktəbdə Ağbulaq kəndi ərazisinə ekskursiya, müxtəlif idman və əyləncəli oyunlar, müsabiqələr, intellektual yarışlar, oxunması zəruri olan kitabların müzakirəsi keçirilib, Azərbaycan filmləri nümayiş etdirilib. Uşaqlar arasında Azərbaycan xalq mahnılarından ibarət karaoke, “Milli dəyərlərimiz bizim sərvətimizdir” və digər mövzularda maarifləndirici seminarlar təşkil olunub. Şahbuz Rayon Mədəniyyət Şöbəsinin musiqiçiləri uşaqların qarşısında konsert proqramı ilə çıxış ediblər. İstirahət müddətində keçirilən müsabiqə və yarışlarda fəal olan uşaqlar Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən diplomla təltif olunublar.

“Yay məktəbi”nə cəlb olunmuş uşaqlara nəzarət etmək üçün 4 nəfər komitə əməkdaşı və istirahət müddətində uşaqların sağlamlıqlarının qorunması, onlara ilkin tibbi yardımın göstərilməsi məqsədilə bir nəfər həkim təhkim olunub.

## Bizim şah əsərlərimiz

***Tarixboyu hər bir cəmiyyət öz gələcəyi olan uşaqların fiziki və mənəvi cəhətdən sağlam, bilikli və vətənpərvər yetişməsinə ən aktual məsələ kimi baxıb. Danılmaz faktdır ki, böyüməkdə olan balaca fidanlar bizim sabahımızı inşa edəcək şəxslərdir. Bu gün uşaqlar dövlətimiz tərəfindən tam qayğı ilə əhatə olunsalar da, onların dünyagörüşlü, vətənpərvər ruhda böyüməsində ən əsas vəzifə valideynlərin üzərinə düşür. Hər bir uşağın valideyn tərbiyəsinə böyük ehtiyacı vardır. Ancaq övladlarımız onların uşaqlıq dünyasına ifrat müdaxilə etməmək şərtilə tərbiyəyə cəlb olunmalıdırlar.***

Dünya ədəbiyyatı klassiklərindən böyük rus yazıçısı Fyodor Dostoyevskinin dediyi kimi: “Uşaqlıq görməyən insan gələcəkdə pis vətəndaş olacaq”.

Yollarımızın rahatlığı məni xəyal dünyasına qərq etdiyindən bu mövzu ətrafında fikirləşə-fikirləşə şəhərdaxili marşrutda mənzilə çatmağımı gözləyirdim. Avtobusun ön hissəsində əyləşən, məşhur film qəhrəmanlarından olan Hörümçək adam personajının geyimində olan uşağın uca səslə “Mən qəhrəmanam”, – deyə dəcəllik etməsi məni fikirlərimdən ayırdı. Uşağa yaxınlaşdım və söhbətə başladım:

– Salam! Balaca, adın nədir?

– Salam! Mən Hörümçək adamam.

– Bəs Hörümçək adam kimdir?

– Sən məni tanımırsan? Mən qəhrəmanam.

– Sən hansı qəhrəmanlıqlar edirsən?

Bu sualımdan sonra balaca bir az fikirləşdi və uşaqlara xas ada ilə “Mən pis insanları döyürəm”, – deyə cavab verdi.

– Bəs bu paltarı niyə geyinmisən?

– Bu olmasa, məni döyərlər.

Balaca uşağın sonuncu cavabı mənə qəribə təsir etdi. Bu cavab istər-istəməz bir az öncəki düşüncələrimə geri qaytardı və yeni suallar ətrafında düşünməyə başladım. Axı xalqımıza yad olan belə qəhrəmanlar necə ola bilər ki, böyüməkdə olan uşaqlarımızın həyatının ayrılmaz hissəsinə çevrilib? “Qeyri-adi kostyumsuz qəhrəmanlıq olmaz” düşüncəsi ilə böyüyən uşaq sabah bu təsirlə çətin ki dövlətimizə və millətimizə faydalı bir vətəndaş olsun.

Müasir dövrümüzdə uşaqlarımız dünyaya gəldikləri andan özüoxuyan beşiklərdə saxlanılır, süni qidalarla bəslənirlər. Nəticədə, uşaqlar həm sağlamlıqdan, həm də körpəlikdən qulaqlarımızda hələ də səslənən ana laylalarından məhrum qalırlar. Halbuki laylalarda analarımızın körpələrinə olan ümidləri, xəyalları təcəssüm olunur.

Araşdırmalar sübut edib ki, insan tərbiyəsinin tam formalaşması 21 yaşına qədər davam edir. Bu yaşa qədər də tərbiyənin düzgün təşkil edilməsi üçün müxtəlif yaş dövrləri vardır. 7 yaşına qədər uşaqlıq dövrü sayılır ki, bu dövrdə uşaqlar daha çox gördüklərini təqlid edirlər. Bu yaşda uşaqlar əcaib məxluqlar yığınından ibarət səssiz cizgi filmlərinin aludəçilərinə çevrilməməli, onlara nənələrimizin dilindən əzbərlədiyimiz, milli-mənəvi dəyərlərimizi özündə yaşadan nağıllarımızı danışmalıyıq. Fikir vermisinizsə, səssiz cizgi filminə baxan uşaqlarda gələcəkdə söz ehtiyatı olmur və özlərini ifadə edə bilmirlər. Nağıllara qulaq asan uşaq isə susmur, davamlı suallar verir ki, bu da gələcəkdə onun həm söz ehtiyatının çoxalmasına, bədii təxəyyülünün zənginləşməsinə gətirib çıxarır, aktivliyini artırır, həm də milli-mənəvi keyfiyyətlər uşaq təfəkkürünə həmişəlik həkk olunur. Bundan əlavə, 7 yaşından yuxarı uşaqlarla münasibətdə diqqətli olmaq lazımdır. Ümumiyyətlə, həmin yaşda olan uşaqların yanında valideynlər mübahisə etməməli, dərslərini yaxşı oxusunlar deyə, onları uşaqlıqlarını yaşamaqdan, oyun oynamaqdan məhrum etməməlidirlər. Çünki uşaqlıq dövründə psixologiyaya mənfi və ya müsbət təsir edəcək şeylər insanı ömrünün sonuna kimi izləyir.

Digər tərəfdən, uşaqlar dövlətimizin tam qayğısı ilə əhatə olunaraq, istər məktəbəqədər təhsil müəssisələrində, istərsə də məktəblərdə heç bir ehtiyac hiss etmədən təhsil alırlar. Ancaq bu, o demək deyil ki valideynlər öz uşaqlarının tərbiyəsini təkcə müəllimlərə həvalə etməlidirlər. Hər bir tərbiyə evdən başlayır. Qeyd edildiyi kimi, övladınızın geyim ehtiyaclarının ödənilməsi, hər bir şəraiti olan binalarda təhsil almaları bu mövzuda hələ hər şey demək deyil. Unutmaq olmaz ki, tərbiyənin ən ümdə vəzifəsi Vətən, millət, dövlət sevgisini uşaqlara aşılamaqdır. Öz xalqına, Vətəninə qəlbən bağlı, ömrü boyu ətrafındakı insanların köməyinə çatan, Vətənin dar günündə müdafiəsinə qalxan milli qəhrəmanlarımızın, şəhidlərimizin həyat yolu uşaqlarımız, yeniyetmələrimiz üçün əsl örnəkdir. Əsrlər boyu xalqımızın belə övladları ilə həmişə fəxr etmişik və gələcəyimiz olan uşaqlarımızı da onlar kimi görmək istəmişik. Bunun üçün də öz övladlarımıza Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin, digər görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətlərini, həmçinin şəhidlərimizin, milli qəhrəmanlarımızın keçdikləri şərəfli ömür yollarını bütün yaş mərhələlərinə uyğun şəkildə aşılamalıyıq.

Qəhrəmanlıq üçün Hörümçək adam olmağa ehtiyac varmı? Bunu uşaqlarımıza təlqin edənlərin istəyi məhz gələcək üçün dünyagörüşlü, savadlı, vətənpərvər gənclik yetişdirməyin qarşısını almaqdır. Öz gələcəyimizi sağlam təməllər üzərində qurmaq istəyiriksə, uşaqlara düzgün örnəklər göstərməliyik.

Əziz valideynlər! Övladlarınızdan sevginizi əsirgəməyin, çünki elə vətəndaş olmanın yolu da Vətənə, millətə sevgidən keçir. Övladlarınıza sevgini, mərhəməti, əxlaqı, dini dəyərlərimizi öyrədin. Heç nəyin səbəbsiz yaranmadığını, ən böyük sevgi sahibinin uca Yaradan olduğunu öyrədin. Çünki onlar bizim şah əsərlərimizdir.

**Pərviz HACILI**

## Şahmatçılarımız Türkiyədə böyük uğura imza atıblar

Türkiyənin Malatya şəhərində şahmat üzrə 6-cı beynəlxalq “Qızıl ərik” şahmat festivalı keçirilib. Festivalda Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının yetirmələri də iştirak ediblər.




Turnirin reqlamentinə əsasən 10 ölkədən 495 şahmatçı 5 qrupda mübarizə aparıb. “A” qrupunda mübarizə aparan FİDE ustamız Pərviz Qasımov keçirdiyi 9 görüşdən 7 xal toplayıb və nəticədə, üçüncü olub. Eyni zamanda zəka sahibimiz beynəlxalq əmsalını 27,1 (2314) artıraraq beynəlxalq usta normasının ilk balını toplayıb.

“B” qrupunda çıxış edən Tural Zeynalov 198 zəka sahibi arasında 7-ci olub. Belə ki, şahmatçımız 9 turdan 7 xal toplayıb və beynəlxalq əmsalını 20,6 (1682) artırıb.

14 yaşlı şahmatçıların mübarizəsində uğurlu nəticəni Nazlı Hümbətova əldə edib. İdmançımız, ümumilikdə, dördüncü, qızlar arasında isə ikinci olub.

10 yaşlı zəka sahiblərinin mübarizəsində Hüseyn Qənbərli 9 turdan ibarət festivalda 6,5 xal toplayaraq 5-ci yerlə kifayətlənib.

Sonda şahmatçılarımıza təşkilatçılar tərəfindən diplom, medal, kubok və pul mükafatı təqdim olunub.

## Cüdoçularımızdan daha dörd medal

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının yetirmələri daha bir uğura imza atıblar. Türkiyənin Samsun şəhərində cüdo üzrə keçirilən beynəlxalq turnirdə iştirak edən idmançılarımız mükafatçılar sırasına düşməyi bacarıblar.



2004-2005-ci illər təvəllüdlü cüdoçular arasında tatami üzərinə Qalib Qaybalıyev çıxıb. 42 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız bütün rəqiblərinə qalib gələrək turnirin baş mükafatını qazanıb. 22 kiloqram çəki dərəcəsində Rəhim Qaybalıyev gümüş medalın sahibi olub.

2001-2003-cü illər təvəllüdlü idmançıların mübarizəsində isə fəxri kürsüyə iki cüdoçumuz çıxıb. 50 kiloqram çəki dərəcəsində Abbas Məmmədov ikinci, Cavid İsayev isə üçüncü olublar.

Sonda qalib idmançılarımız diplom və medallarla mükafatlandırılıblar.

**Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Naxçıvan şəhəri, M.Mirişli küçəsi, bina 1, mənzil 15-də yaşayan Hümbətov Rəqibə Bəşir qızının adına olan 8898 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Yarımca kənd sakini Hüseynova Surayyə Mənsum qızının adına olan JN-0040 inventar nömrəli 10312018 kodlu torpağın mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayon Aşağı Uzunoba kənd sakini Səmədov Yavər Ələkbər oğluna məxsus JN-256 nömərli torpağın mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir
və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və
Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 579